No: 04 2026
https://doi.org/10.64400/ea26-04-09
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

"ƏKİNÇİ" QƏZETİ VƏ ELMİ JURNALİSTİKA PROBLEMİ

İman CƏFƏROV
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif:* imanceferov@ndu.edu.az

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 02.11.2026
Nəşr edilmə tarixi: 30.11.2026

AÇAR SÖZLƏR:
"Əkinçi" qəzeti, Həsən bəy Zərdabi, elmi jurnalistika, elmin populyarlaşdırılması, maarifçilik, elmi bilik, milli mətbuat

XÜLASƏ
Məqalədə Həsən bəy Zərdabinin redaktorluğu ilə 1875–1877-ci illərdə nəşr olunan "Əkinçi" qəzetinin materialları əsasında Azərbaycanda elmi jurnalistikanın təşəkkülü və inkişaf xüsusiyyətləri araşdırılır. Tədqiqatda qəzetin elmi biliklərin kütləviləşdirilməsi, dünyəvi elmlərin təbliği və milli düşüncənin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi maarifçilik fəaliyyəti diqqət mərkəzinə çəkilir. "Əkinçi"də dərc olunmuş kənd təsərrüfatı, tibb, ekologiya, təbiət elmləri və ictimai düşüncə ilə bağlı yazıların məzmunu təhlil edilərək elmi informasiyanın geniş auditoriyaya çatdırılmasının əsas prinsipləri müəyyənləşdirilir. Araşdırmada Həsən bəy Zərdabinin elmi bilikləri oxucuların dünyagörüşünə, maraqlarına və qavrama imkanlarına uyğun şəkildə təqdim etmək bacarığı xüsusi olaraq dəyərləndirilir. Müəyyən olunur ki, "Əkinçi"nin elmi jurnalistika modeli elmi informasiyanın praktik əhəmiyyətinin önə çəkilməsi, auditoriyanın bilik səviyyəsinin nəzərə alınması, eləcə də elmi məzmunun sadələşdirilməsi zamanı faktoloji dəqiqliyin qorunması prinsiplərinə əsaslanır. Məqalədə bu prinsiplərin müasir elmi jurnalistika üçün də aktuallığı əsaslandırılır və "Əkinçi"nin maarifçilik ənənələrinin müasir media mühitində tətbiqinin əhəmiyyəti vurğulanır. Bununla yanaşı, qəzetin elmi mövzuları gündəlik həyatla əlaqələndirməsi, oxucuda müşahidə və araşdırma marağı yaratması, cəmiyyətin elmi savadlılığının yüksəldilməsinə verdiyi töhfə nəzərdən keçirilir. Tədqiqat "Əkinçi"nin Azərbaycan tarixində maarifçilik və elmi kommunikasiya baxımından rolunu göstərir.

GİRİŞ

Çağdaş dünyamızda müxtəlif düşüncə sistemlərini ciddi şəkildə məşğul edən problemlərdən biri elmi jurnalistikadır və bu problemin həlli birbaşa cəmiyyətlərin yeni nizamında insanın mövcud dünyagörüşündən qaynaqlanır. Məsələ ondadır ki, zaman-zaman jurnalistikanın əsas funksiyaları olan maarifləndirmə və bilgiləndirmə öz yerini əyləncəyə vermiş, nəticədə sanki jurnalistikanın bəşəri missiyası yaddan çıxmışdır. Eyni səbəbdən bu gün elmi jurnalistikanın inkişafı fikir aydınlarını daha ciddi şəkildə məşğul etməkdədir. Başqa sözlə, çoxsaylı uğurları ilə həyatımıza nüfuz edən qloballaşma eyni zamanda müəyyən fəsadların yaranmasına yol açmışdır ki, onlardan da biri, yaxud birincisi medianın özünü auditoriyanın istəklərinə uyğunlaşdıraraq elmi düşüncənin təntənəsinə nail olmaq vəzifəsini unutmasıdır. Müqayisə üçün xatırladaq ki, "Əkinçi"nin nəşr olunduğu 1875-1877-ci illərdə, daha doğrusu, əhalinin böyük əksəriyyətinin oxumaq və yazmaq bilmədiyi zaman və məkan daxilində Həsən bəy Zərdabi, sözün həqiqi mənasında, Azərbaycanda elmi jurnalistikanın əsasını qoymuş, milli düşüncənin elmlə silahlanması istiqamətində ciddi uğurlara imza atmışdır. Əsl həqiqətdə, "Əkinci" qaragüruh kütlənin ardınca getmək yolunu deyil, xalqın səviyyəsinə enərək onu ucaltmaq yolunu tutmuşdur. Bu mənada elmi jurnalistikanın "Əkinçi" modelini və prinsiplərini öyrənmək bu gün son dərəcədə vacib və gərəklidir. Qəti şəkildə demək mümkündür ki, Azərbaycanda həm mətbuatın, həm də elmi jurnalistikanın tarixi birbaşa "Əkinçi" qəzetindən başlayır.

MATERİAL VƏ METODLAR

Tədqiqatın material bazasını Həsən bəy Zərdabinin redaktorluğu ilə 1875–1877-ci illərdə nəşr olunmuş "Əkinçi" qəzetinin materialları, XIX əsr Azərbaycan maarifçilik hərəkatına və milli mətbuat tarixinin öyrənilməsinə həsr edilmiş elmi əsərlər, eləcə də elmi jurnalistika və elmin populyarlaşdırılması məsələlərinə dair müasir tədqiqatlar təşkil edir. Araşdırma zamanı "Əkinçi" qəzetində dərc olunmuş "Daxiliyyə", "Əkin və zirayət xəbərləri", "Elm xəbərləri" bölmələrinə aid materiallar, Həsən bəy Zərdabinin və qəzetin digər müəlliflərinin elmi-maarifçilik məzmunlu yazıları

əsas tədqiqat obyekti kimi seçilmişdir. Eyni zamanda, qəzetdə kənd təsərrüfatı, təbiət elmləri, tibb, ekologiya, gigiyena və dünyəvi elmlərin təbliği ilə bağlı dərc edilmiş məqalə və elmi hekayələr araşdırmaya cəlb olunmuşdur.

Tədqiqatın metodoloji əsasını tarixi-müqayisəli, məzmun təhlili, təsviri-analitik və sistemli yanaşma metodları təşkil edir. Tarixi-müqayisəli metod vasitəsilə XIX əsrin ikinci yarısında Azərbaycanda elmi biliklərin yayılması prosesinin xüsusiyyətləri müasir elmi jurnalistikanın prinsipləri ilə müqayisəli şəkildə araşdırılmışdır. Məzmun təhlili metodu əsasında "Əkinçi" qəzetində elmi informasiyanın təqdimat xüsusiyyətləri, mövzu istiqamətləri, auditoriyaya uyğunlaşdırılması və praktik əhəmiyyəti müəyyənləşdirilmişdir. Təsviri-analitik metod qəzet materiallarında elmi biliklərin sadə və anlaşıqlı dildə izahı, faktların təqdim olunması və maarifçilik məqsədlərinin gerçəkləşdirilməsi xüsusiyyətlərinin üzə çıxarılmasına xidmət etmişdir. Sistemli yanaşma əsasında isə "Əkinçi"nin elmi jurnalistika təcrübəsində formalaşmış prinsiplər ümumiləşdirilmiş və onların müasir media mühiti üçün əhəmiyyəti qiymətləndirilmişdir.

Araşdırmada tarixi mənbələrin məzmununa və dövrün ictimai-mədəni şəraitinə istinad edilməklə elmi biliklərin populyarlaşdırılması prosesinin kommunikativ xüsusiyyətləri də nəzərdən keçirilmişdir. Bu yanaşma "Əkinçi" qəzetinin yalnız milli mətbuat tarixindəki yerini deyil, həm də Azərbaycanda elmi jurnalistikanın təşəkkülündəki rolunu müəyyənləşdirməyə imkan vermişdir.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Məsələ ondadır ki, Həsən bəy Zərdabi və bu böyük maarifpərvər ziyalının digər əqidə yoldaşları yaşadıqları cəmiyyətin tənəzzül bataqlığında məhvə sürüklədiyini görür, xilas yolları axtarır, milli düşüncənin dünyəvi elmlərlə silahlanmasını vacib və gərəkli sayırdılar. Lakin proses, yəni dünyəvi elmlərin cəmiyyət üzvlərinə təqdimi o qədər də asan deyildi. Çünki əsrlərlə Şərq insanı dünyanın faniliyinə inandırılmış, beyinlərə ətalət və cəhalət eyni dərəcədə tam hakim kəsilmişdi. Azərbaycan cəmiyyətinin kütləvi halda dünyəvi elmlərdən uzaq tutulması həm Rusiya imperiyasını, həm imperiyanın əlində alətə çevrilmiş savadsız və yalançı din nümayəndələrini, həm də yerli imkanlıları tamamilə qane edirdi. "Əkinçi" qəzetinin yaradıcısı Həsən bəy Zərdabi isə 1861-1865-ci illərdə Moskva Universitetində təhsil almışdır (Həbibbəyli, 2004). Əlbəttə ki, təhsil illərində "raznoçinlər" hərəkatı H.Zərdabinin dünyagörüşünə ciddi təsir göstərmişdi və bu gənc ziyalı dünyada milli varolmanın yeni şərtlərindən xəbərdar idi. Bu səbəbdən "Əkinçi"nin redaktoru, ilk növbədə, yeni tarixi dövrdə xalqların həyat mücadiləsində dünyəvi elmlərə yiyələnmənin nə qədər gərəkli olmasını izah etməyə çalışır, artıq bütün xalqların yaşamaq uğrunda mübarizə apardıqlarını nəzər nöqtəsinə çəkir, həmin mübarizədə elmli xalqların qeyd-şərtsiz qalib gələcəklərini bildirirdi. Budur, qəzetin 20 sentyabr 1875-ci il tarixli 5-ci sayında getmiş "Daxiliyyə" başlıqlı məqalədən oxuyuruq: "Zikr olan zindəganlıq cəngində tüfəng və xəncər işləməz, güc və rəşidlik iş görməz. Onun əsbabı ancaq ağıldır və ağıl bir şeydir işləndikcən tərəqqi edər, yəni elm təhsil etdikcən ağıl da artar. … Bizim zəmanəmiz dəyişilib, biz elm sahiblərinə rast gəlmişik. Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoşgüzəranlıq onların əlinə gedəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacayıq" (Əkinçi, 2005).

Əlbəttə, "Əkinçi" müəlliflərinin məhz bilgiləndirmə missiyasına uyğunluqla fəaliyyət göstərmələri hələ XX əsrin 70-ci illərindən tədqiqatçıların diqqətini cəlb etmiş, görkəmli ədəbiyyatşünası Ə.Mirəhmədov eyni məsələlərdən söz açaraq H.Zərdabinin, eləcə də bu böyük maarifpərvər ziyalı ilə birlikdə maarifçilik uğrunda mücadilə aparan digər qələm sahiblərinin xidmətlərini məxsusi dəyərləndirmişdir. Ə.Mirəhmədovun fikrincə, H.Zərdabi həmvətənlərinin tərəqqisi naminə M.F.Axundzadə ilə yanaşı, Seyid Əzim Şirvani, N.Vəzirov, Əhsənül-qəvaid, Ə.Gorani, Ələkbər Heydəri kimi zəka sahiblərinin köməyinə arxalanmış, onlarla birlikdə oxuculara öz dövrünün mühüm elmi, texniki, kənd təsərrüfatı və mədəni yenilikləri haqqında müntəzəm məlumat vermiş, eyni məqsədlə cəmiyyət üzvlərinin yeni elmi dünyagörüşünün parlaq nümunələri ilə tanışlığına şərait yaratmışdır (Mirəhmədov, 1983). Bununla belə, "Əkinçi" qəzetində elmi jurnalistika problemlərinin öyrənildiyini söyləmək obyektivlikdən uzaq olar. Halbuki Həsən

Məlikzadə Zərdabi tərəfindən çap etdirilən qəzetdəki materiallara əsaslanmaqla elmi jurnalistikanın bu gün belə aktuallığı ilə səciyyələnən aşağıdakı prinsiplərini təsnifləndirmək mümkündür:

1. Mətbuat istənilən elmi informasiyanı deyil, cəmiyyət üzvü üçün gərəkli ola biləcək, onun həyat şəraitinin yaxşılaşmasına müsbət təsir göstərəcək elmi informasiyanı təqdim etməlidir.
2. Mətbuatda yer tutan elmi yazılar təbiət və cəmiyyətdə tarazlığın saxlanılmasına hesablanmalı, eyni prosesdə insanın ictimai və sosial məsuliyyətini gündəmə gətirməldir.
3. Elmi jurnalistikada auditoriyanın bilik və düşüncə səviyyəsi nəzərə alınmalı, mövcud şərtlər daxilində zəruri elmi biliklərin kütləviləşdirilməsi həyata keçirilməlidir.

İnkaredilməz ki, XXI əsrin çoxsaylı mətbuat orqanlarında, eləcə də internet jurnalistikasını təmsil edən jurnal və qəzetlərdə, xəbər portallarında müxtəlif elmlərlə bağlı əsaslı yazılarla qarşılaşmaq mümkündür ki, onların böyük əksəriyyəti geniş kütlə üçün maraq kəsb etmir. Münasibətlər sistemində oxucu və mətbuat konsensusunu diqqətdə saxlayan H.Zərdabi sahib olduğu elmi təfəkkürün imkanlarını nəzər nöqtəsinə çəkmədən cəmiyyət üzvlərinə lazım olacaq biliklərin həm də mətbuat vasitəsilə çatdırılmasını gərəkli saymış və bu zaman elmi materialın yığcam və inandırıcılığına xüsusi əhəmiyyət vermişdir. Faktdır ki, 1861-ci ildən Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsinin təbiət şöbəsində ali təhsil almağa başlayan Həsən bəy Zərdabi darvinizmə dair biliklərə dərindən yiyələnmiş, eləcə də 1865-ci ildə, yəni universiteti bitirərkən elmi iş müdafiə etmiş, indiki istilahlarla ifadə etsək, fəlsəfə doktoru elmi dərəcəsi alan ilk azərbaycanlı olmuşdur. Bununla belə, ustad jurnalist "Əkinçi"də darvinizm nəzəriyyəsindən bəhs etməyi gərəksiz saymış, hətta qəzetin 56 sayında bir dəfə də Darvinin adını çəkməyə ehtiyac duymamışdır. Əvəzində isə böyük ziyalı elmsizlik ucbatından məhvə sürüklənən cəmiyyətin xilas yolunu elm əldə etməkdə görmüş, bu işi isə xüsusi peşəkarlıqla həyata keçirmişdir. Bəli, bu gün biz dönə-dönə müşahidə edirik ki, mətbuat səhifələrində elmlə bağlı hər hansı bir material akademik düşüncə və akademik ifadə əsasında yazılıb, lakin oxucusunun qavrama modelinə uyğunlaşdırılmayıb. Əslində elmi jurnalistikanın tələblərinə görə, media nümayəndəsi daha artıq çalışmalı, mətbuat səhifəsinə çıxardığı biliklə bağlı məlumatları oxucunun düşüncə səviyyəsinə, maraq dünyasına, dilinə və qavrama imkanlarına uyğun yeni modelə salmalıdır. Yəni elmi jurnalistikada bilik tamamilə yenidən kodlaşdırılır, jurnalistin özünəməxsus sadələşdirilmiş şərhi ilə biçimləndirilir, oxucuların səviyyəsi ilə tarazlaşdırılır. Bu prosesdə əsas məram ictimai düşüncənin tərəqqisinə hesablanır. Digər tərəfdən, dil sadələşməsində biliyin təhrifi yolverilməzdir. Yəni söhbət biliyin kütləviləşməsi üçün kommunikativ transformasiyasından, yenidən qurulmasından gedir**.**

Göründüyü kimi, elmi jurnalistikanın vəzifəsi bir qədər fərqli, həm də çətindir. Bütün bu cəhətləri nəzərə alan H.Zərdabi "Əkinçi"nin ilk sayında elan etmişdir ki, qəzetin fəsillərindən biri "Elm xəbərləri" olacaqdır. Bununla belə, qəzetdə yer tutan bütün materiallarda bu və ya digər dərəcədə elmi dünyagörüş formalaşdıracaq məlumatların qələmə alındığını görürük. Məsələn, "Əkinçi"nin ilk sayında getmiş "Əkin və zirayət xəbərləri" belə bir yarımsərlövhə ilə təqdim edilmişdir: "Mal südündən yağ qayırmaqdan danışacaq." Yazının əvvəlində H.Zərdabi məxsusi vurğulamışdır ki, məsələnin mahiyyəti həyatını qara mal saxlamaqla quran insanın çəkdiyi zəhmət müqabilində qazanc əldə etməsidir. Başqa sözlə, böyük ziyalı öz həmvətənlərinə sadəcə zəhmət çəkməyi deyil, ağıl və elmlə zəhmət çəkməyi məsləhət görmüşdür. Bəli, "Əkinçi"ni oxuduqca məlum olur ki, H.Zərdabi qəzetin səhifələrində zaman-zaman yeni elmi kəşflərdən də söz açmışdır. Lakin ilk öncə o məsələlərdən bəhs etmişdir ki, həmin məsələlər nəzərə alınmadan Azərbaycan kəndlisinin zəhmət çəkməsinə ehtiyac yoxdur. Bütün bu kimi məqamları diqqətdə saxlayan fədai jurnalist üzünü kəndli vətən qardaşlarına tutaraq yazmışdır: "İmtahan ilə biliblər ki, otaqda on dərəcə, yəni on qradus isti olsa, yəni qışda bizlər sakin olduğumuz otaqların istiliyi olsa, ol vaxtda iyirmi, ya iyirmi dörd saat süd zikr olan qablarda saxlansa, o südün tamam qaymağı üzünə yığılır. Əgərçi südü belə otaqda qırx səkkiz saat da saxlamaq olur və südü artıq saxladıqcan qaymağın da qədəri artır, amma süd çox zaman sərilmiş qalsa, çürüyüb bilmərrə tələf ola bilər. Yaxşıdır ki, onu iyirmi dörd saatdan ziyadə saxlamayasan və bir də imtahan ilə biliblər ki, əvvəl zaman südün üzünə çıxan qaymaq çox dadlı və xoş iyli olur, amma axırda yığılan qaymaq elə dadlı olmaz. Bu səbəb böyük şəhərlərin yavıqlığında sərilmiş südün üzünə çıxan qaymağı on iki saatdan sonra yığıb, bu əvvəl yığılmış qaymaqdan çox əla

yağ çalxayıb, ziyadə qiymətə satırlar, sonra on iki saat keçəndə genə təzədən qaymağı yığıb, bu sonra yığılmış qaymaqdan alçaq yağ qayırırlar" (Əkinçi, 2005).

Göründüyü kimi, H.Zərdabi müstəmləkəçiliyin ağır şərtləri altında yaşayan Azərbaycan kəndlisinə həyatını asanlaşdırmaq üçün yeni elmi texnologiyalar təqdim etmiş və bu məqamda məqalələrin canlı xalq danışıq dilində olmasına xüsusi önəm vermişdir.

H.Zərdabi görürdü ki, onsuz da çətin şəraitdə ömür sürən həmvətənləri həm də müxtəlif epidemiyalar, xəstəliklər səbəbindən həyatlarını itirirlər. Böyük alim-jurnalist xəstəliklərin bir qisminin məhz təbiət hadisələri ilə əlaqədar yarandığını diqqətə çəkir, bildirirdi ki, seldən sonra evlərə yığılmış lil tamamilə kənarlaşdırılmalı, yenidən həmin evlərdə yaşamaqdan ötrü divarların quruması gözlənilməlidir. Xalqının sağlamlığına böyük əhəmiyyət verən jurnalist yazırdı ki, sel nəticəsində evlərə dolmuş lilin içərisindəki heyvanat və nəbatat növləri çürüyərsə, müxtəlif xəstəliklərə səbəb ola bilər.

H.Zərdabi elm əldə etməyi, ilk növbədə, həyatda mövcud olmanın ən ciddi şərtlərindən biri kimi gündəmə gətirmişdir. Böyük ziyalı artıq Azərbaycan insanını bir bölgənin deyil, dünyanın fərdi səviyyəsində görmüş, eyni müstəvidə yaşamaq üçün isə elm qazanmağın vacibliyini məxsusi vurğulamışdır. Maraqlıdır ki, H.Zərdabi yeni dünyada qaydaların dəyişdiyini, yaşamaq uğrunda mübarizə prinsiplərinin yeniləndiyini, modern həyatda qarşıdurmaların daha da kəskinləşdiyini gündəmə gətirərək müasir insan üçün elmin yeganə çıxış yolu olması mövqeyində dayanmışdır. Bəli, "Əkinçi"nin yaradıcısı öz oxucularına bu ideyanı təlqin etmişdir ki, bir xalq olaraq həyatda qalmaqdan ötrü məmləkətin hər bir vətəndaşı zəruri biliklərə yiyələnməlidir. Əlbəttə ki, bu məqamda dahi jurnalist qəzetçilikdə dil sadəliyinin vacibliyini də gərəkli sayaraq elm qazanmağın mövcud dünyada mühüm şərt olduğunu aydınlatmağa çalışmışdır.

Prinsip etibarilə, "Əkinçi" qəzetində çap olunmuş materialların böyük əksəriyyəti milli təfəkkürün elmlə təması missiyasını gerçəkləşdirmək məqsədilə qələmə alınmışdır. Məsələn, qəzetin ilk ilinə aid 7-ci sayında "Elm xəbərləri" başlığı ilə getmiş ilk yazı Fransanın Sen Didyö adlı bölgəsindəki su quyusu haqqındadır. Həmin yazıda müəllif Əsgər Mirzə Adıgözəlzadə Gorani bildirir ki, haqqında danışılan quyunun suyu insanları xəstələndirir və səbəb quyunun qəbiristanlıq yaxınlığında qazılmasıdır. Beləliklə, yazıda qəbiristanlıq yanında qazılmış quyunun xəstəlik mənbəyinə çevrilməsi diqqətə çəkilir. Maraqlıdır ki, Ə.Gorani çox sadə dillə həmvətənlərini elmi təcrübə aparmağa səsləyərək yazır: "Bir suya cismi-bədəniyyət qarışmış olduğunu belə bilmək olur: ol sudan iki qaşıq bir stəkana töküb içinə bir az narın əzilmiş şəkər salıb bir isti yerdə bir neçə vaxt saxlayanda əgər ol su sulansa, məlumdur ki, ona cismi-bədəniyyət qarışıb ki, belə suyu içmək bədənə zərərdir" (Əkinçi, 2005).

Eyni "Elmi xəbərlər" başlığı altında Ə.Görani bu gün üçün də əhəmiyyətini itirməyən daha bir neçə məsələni gündəmə gətirmişdir. Sirr deyil ki, çağdaş zamanımızda bütün dünyanı məşğul edən problemlərdən biri qida təhlükəsizliyidir. Daha doğrusu, bəzən kimyəvi maddələr vasitəsilə vaxtından əvvəl yetişdirilən kənd təsərrüfatı məhsulları insanların sağlamlığı üçün təhlükə mənbəyinə çevrilir. Hələ 150 il bundan öncə "Əkinçi" öz oxucusuna meyvənin daha tez və təbii yolla yetişdirilməsindən söz açaraq Azərbaycan kəndlisinə çox maraqlı bilgilər təqdim etmişdir: "Almaniya dövlətinin sakini Stal adlı elm sahibi meyvəni tez yetişdirməkdən ötrü belə imtahan edib: armudun yetişməyinə iki ay qalmış bir armud ağacının dibini 3, ya dörd arşın qazıb ki, ağacın köklərinin üstə yarım kərhə qədər torpaq qalıb. Ol vaxt günün istisi ol köklərə artıq dəydiyinə ol ağacın meyvələri qeyri ağacların meyvəsindən bir ay yarım irəli yetişmişdir. Çünki belə ağacın dibini qazanda onun köklərinə gün artıq dəyməkdən ağac quruyur, bilmərrə tələf olur, ona binaən belə ağacı lazımdır ki, tez-tez sulayasan" (Əkinçi, 2005).

"Əkinçi" müəllifləri qəti şəkildə belə bir mövqedə dayanmışlar ki, əsrlərlə dünyəvi elmlərdən uzaq salınmış insana birdən-birə XIX əsrin kəşflərini təqdim etmək mənasızdır. Elmin təbliğində təkamül nəzəriyyəsinə əsaslanan qələm sahibləri ilk növbədə cəmiyyətin dünyəvi elmlərə münasibətini dəyişmək istiqamətində iş aparmış və bu zaman öz fikirlərinin təsdiqi üçün məhz islam tarixinə istinad etmişlər. Bu mənada təqdirəlayiq haldır ki, qəzetin səhifələrində "Bizə hansı elmlər lazımdır?" probleminin gündəmə gətirilməsi də mühüm əhəmiyyət kəsb edirdi. Digər tərəfdən, Azərbaycan elmi düşüncəsinə bolşevizmin hakim kəsildiyi XX əsrin 70 ili ərzində insanlara belə bir

fikir təlqin olunmuşdur ki, din nümayəndələri bir qayda olaraq cəmiyyət üzvlərini mövhumata, cəhalətə, ətalətə səsləmişlər. Əlbəttə, hələ XIX əsrin əvvəllərindən başlayaraq həqiqi islam elmi əvəzinə cəmiyyətə cəhalət və mövhumat gətirən din nümayəndələri kifayət qədər çox olmuşdur. Bununla belə, "Əkinçi"yə istinadən deyə bilərik ki, Azərbaycanda dünyəvi elmlərin gərəkli olmasından söz açan üləmalar da yox deyildi. Budur, qəzetin 1 yanvar 1876-cı il tarixli 12-ci sayında Zaqafqaziya Şeyxülislamı Axund Əhməd Hüseynzadə tərəfindən göndərilən məktubun çap olunduğunu görürük. Əslində həmin məktub təsadüfən yazılmayıb və təsadüfən dərc olunmayıb. Qəzetin 2 dekabr 1875-ci il tarixli 10-cu sayında "Petrovskidən (Dağıstan, Mahaçqala) cənab Heydəri yazır" başlığı ilə məktub yer tutur və həmin məktubda göstərilir ki, guya ərəb dilini bilən bir rusiyalı Heydəriyə islam peyğəmbəri Məhəmməd Mustafa ilə bağlı bir sual vermişdir. Sualın məğzində isə islam peyğəmbərinin dini və dünyəvi elmlərə dair fikirləri dayanır. Heydərinin yazdığına görə, xristianlar bu qənaətdədirlər ki, ömürləri din və axirətə aid söhbətlərdə keçən müsəlmanlar insan üçün gərəkli olan dünyəvi elmləri tamamilə unutmuşlar. Məktubun sonunda Heydəri "Əkinçi" redaktorundan xahiş edir ki, qəzetdə dünyəvi elmlərin əhəmiyyətinə dair, həm də bilgili müsəlman tərəfindən səviyyəli yazı getsin və həmin yazı ilə xristianlara cavab verilsin. Beləliklə, "Əkinçi" səhifələrində ciddi bir polemikanın aparıldığını görürük. Məsələn, qəzetin 18 dekabr 1875-ci il tarixli 11-ci sayında Əhsənül-Qəvaidin, eləcə də Bakılı bir mollanın eyni məsələ ilə bağlı fikirləri diqqəti cəlb edir. Problemin ciddiyyəti nəzərə alındığından "Əkinçi" öz səhifəsində Zaqafqaziya Şeyxülislamı Axund Əhməd Hüseynzadənin məktubuna da yer ayırmışdır. Maraqlıdır ki, Axund Əhməd Hüseynzadə öz məktubunda Heydəriyə deyil, Həsən bəy Zərdabiyə müraciət etmiş, Məhəmməd peyğəmbərin dünyəvi və dini elmlər haqqındakı fikirlərinə aydınlıq gətirərək, ümumiyyətlə, elmin insan üçün nə dərəcədə əhəmiyyətli olmasını bir daha əsaslandırmağa çalışmışdır. Daha əhəmiyyətlisi isə, şeyxülislamın şərhində dünyəvi və dini elmlərin yüksək dəyərləndirilməsidir. Budur, Axund Əhməd Hüseynzadə sanki "Əkinçi" ədəbi cəbhəsindən çıxış edərək bildirir ki, dünyəvi elmləri öyrənmədən insanın cismani ehtiyaclarını ödəməsi mümkün deyil. Hətta XXI əsrin insanı üçün də əhəmiyyətlidir ki, Axund Əhməd Hüseynzadənin məktubunda bəşər övladının ruzisi hansısa bir ilahi güclə deyil, elmlərlə əlaqələndirilir. Bəli, şeyxülislam aydın şəkildə insanın yemək və geyim əldə etməsi üçün dünyəvi elmləri öyrənməsindən danışır. Düşündürücüdür ki, həmin məktubda ictimai-sosial elmlər, o cümlədən pedaqogika da dünyəvi elmlərə aid edilir.

Çağdaş dönəmdə, elmi jurnalistika mütəxəssislərinin fikrincə, elmi xəbərlər jurnalistikasının mənzərəsi son onilliklərdə əhəmiyyətli dərəcədə dəyişmiş və bu sahədəki dəyişiklik azalma ilə diqqəti cəlb etmişdir. Məsələn, əlaqədar ədəbiyyatlarda vurğulanır ki, 1989-cu ildə ABŞ-nin 95 qəzetində elm və ya tibb bölmələri olduğu halda, 2009-cu ildə bu qəzetlərin sayı 31-ə enmişdir (Matthew Shipman, 2015).

"Əkinçi"nin yaradıcısı Həsən bəy Zərdabi isə öz missiyasının nə olduğunu aydın şəkildə dəqiqləşdirmişdi. H.Zərdabiyə görə, onun "Əkinçi"si ictimai düşüncəni yeniləməli, donmuş təfəkkürləri canlandırmalı, oxuyub-yazmaq bilməyən insanı o dövr üçün modern cəmiyyət qurucusuna çevirməli idi. "Əkinçi" müəllifləri ciddi məntiqlə nəzərə alırdılar ki, onların oxucuları xoşbəxt axirət dünyası arzusu ilə yaşayaraq bu dünyadan tamamilə əllərini üzmüşlər. Bəli, H.Zərdabi özü ilə dünya arasındakı bütün bağları qoparmış həmvətənlərinə üz tutur, onları yenidən yaşadıqları həyata qaytarır və bu işdə mövcud həyatın bütün reallıqlarını diqqətdə saxlayırdı. Məsələn, bu gün dünyanı düşündürən ən mühüm problemlərdən biri ekoloji tarazlığın pozulması, insan həyatı üçün ciddi təhlükələrin yaranmasıdır. Bu baxımdan "Əkinçi" qəzeti səhifələrində ekologiyaya dair onlarla müxtəlif məzmunlu yazılara rast gəlmək mümkündür. Məsələn, qəzetin 20 oktyabr 1875-ci il tarixli 7-ci sayında getmiş "Daxiliyyə" başlıqlı yazıda bütünlüklə ekologiyanın, daha doğrusu, nəfəs aldığımız havanın insan sağlamlığı ilə əlaqəsindən danışılır. Bununla belə, örnək alınası cəhətdir ki, H.Zərdabi əvvəlcə havanın insan üçün əhəmiyyətindən söz açmış, oxucuların düşüncə səviyyəsinə uyğun şəkildə qeyd etmişdir ki, balıq su içərisində yaşadığı kimi, insan da hava içərisində yaşayır. Ümumiyyətlə, "Əkinçi"dəki materiallar üçün əsas xarakterik cəhətlərdən biri oxucuların diqqətini cəlb etməsidir. Bu məqamı nəzərə alan H.Zərdabi çox sadə bir dillər yazır ki, insanın gün ərzində udduğu havanın çəkisi yediyi xörəklərin çəkisindən artıq olur. Eyni səbəbdən təmiz qidalaradan istifadə edən insanın havanın çirkliliyi səbəbindən xəstələnməsi labüddür. Qəti şəkildə deyə bilərik

ki, insanlar üçün gərəkli elmlərin onlara təqdimi baxımından "Əkinçi" materialları bu günün jurnalisti üçün də örnək ola biləcək nümunələrdir. Təqdirəlayiq haldır ki, H.Zərdabinin şərhləri bu günün insanı üçün də eyni dərəcədə gərəklidir: "… İndi bizim əkinçilər bir yeri əkmək məqdur olanda əkirlər, amma olmayanda oturub zəmanədən dad edirlər. Məsələn, çaylar daşmayanda onların kənarlarında sakin olanlar susuzluq çəkirlər. Amma onlar daşanda tamam yerlərin suya qərq edib sonra quruyan yerləri əkirlər, ya axar suyu olanlar onilə əkini suluyub, yəni əkini suya qərq edib suyu əkinin, məsələn, çəltiyin içində ol qədər saxlayırlar ki, özü qurusun. Belə olan surətdə su bir yerdə dayanıb durduğuna iyiyir və onun iyi havaya qarışıb onu xarab edir və bu xarab olmuş hava bizim ağzımıza daxil olub zəhər kimi bədənimizi zəhərləyir. Bu səbəblərə binaən yayda, yəni çox isti olan zaman hər tərəfdən gələn titrədib qızdıranların və yatalaq, ishal, yel və qeyri naxoşluqlardan xəstə olanların ahü-naləsi tamam vilayətimizi basır. Ey məzkur naxoşluqlardan xəstə olan kəs, sənin nalə çəkməyindən nə hasil?

Sən öz haqqında cəbr edib özünü naxoş etməkdən masəva tamam vilayətin havasını xarab edib xalqı xəstə etmisən. Nalə çəkmək əvəzində naxoşluğun səbəblərini fikir elə və əkin yerini, ya əkini suluyanda tənbəllik etməyib ol yerin ayağından bir arx qazıb ol suyu genə aparıb çaya tök ki, axar su ol suyu axıdıb, onu iyiməkdən mühafizət edib, həmi səni, həmi xalqı zikr olan naxoşluqlardan xilas etsin" (Əkinçi, 2005).

"Əkinçi"də elmi jurnalistikanın ən mühüm göstəricilərindən biri qəzetin səhifələrində elmi hekayələrə geniş yer verilməsidir. Faktlar deməyə əsas verir ki, qəzetin hər bir sayında oxuculara müxtəlif məzmunlu elmi hekayələr təqdim olunmuşdur. Digər tərəfdən, Həsən bəy Zərdabinin, eləcə də qələmdaşlarının təsadüfən elmi hekayələr yazdıqlarını düşünmək obyektivlikdən uzaq olar. Qəzetin müəllifləri öz elmi hekayələrində oxucu auditoriyasının həyat tərzini, məişət ehtiyaclarını, yaşam qayğılarını mütləq nəzərə almışlar. O dövrdə Azərbaycan əhalisi əsasən əkinçilik və maldarlıq sahəsində çalışdığından qəzetdə çap olunan elmi hekayələrdə də eyni sahələrdən bol-bol söz açıldığı izlənilməkdədir. Məsələn, ümumiyyətlə, əkin sahələrinə böyük zərər vuran həşəratlar sırasında çəyirtkələr xüsusi yer tutur. Eyni səbəbdən qəzetin 2 dekabr 1875-ci il tarixli 10-cu sayında "Çəyirtkə" başlıqlı xüsusi bir materialın çap olunduğunu görürük. Maraqlıdır ki, adıçəkilən elmi hekayə 4 misradan ibarət şeirlə başlayır və farsça yazılmış həmin şeir çəyirtkəyə aid tapmacadır. Tapmacanın aşağısında müəllif vurğulayır ki, onun məqsədi heç də çəyirtkənin tərifi deyil, bu zərərverici həşəratın necə ömür sürdüyünü bildirmək, bu yolla çəyirtkə ilə mübarizəni asanlaşdırmaqdır.

O da var ki, elmi hekayələrin faydalılıq əmsalı rəqəmlərin dəqiqliyi ilə düz mütənasibdir. Budur, "Çəyirtkə" hekayəsində də müəyyən mənada bir zərərverici həşəratın "ömür yolu" dəqiq rəqəmlərlə göz önünə gətirilir. Hekayədən məlum olur ki, çəyirtkənin ömrü 3 mərhələdən ibarətdir. Yəni əvvəlcə yumurta halında olan çəyirtkə daha sonra ömrünün "piyada" mərhələsini yaşayır və nəhayət, uçan çəyirtkə şəklində məhv olur. Prinsip etibarilə, "Çəyirtkə" elmi hekayəsi həm rəqəmlərin dəqiqliyi, həm informasiyanın yığcamlığı, həm auditoriyanın bilik səviyyəsinə uyğunluğu, həm də əkinçi əhali üçün mühüm əhəmiyyət kəsb etməsi ilə səciyyələnir. Budur, Həsən bəy Zərdabi kəndli həmvətənlərinin ən çox zərər gördüyü həşəratı "Çəyirtkə" elmi hekayəsində belə təqdim edir: "Çəyirtkə qanad açandan sonra qalxıb Şimal tərəfə uçar. Bu uçan zaman onun ömrü 40 gün çəkir. Çəyirtkə səfər edən zaman yolda göyərtiyə rast gələndə düşüb onu yeyir, gecə yatıb sübhdən uçar. Uçan çəyirtkə ömrünün axırında yerə toxum salıb tələf olur. Onun toxumu darı dənəsi boyda, irəngi əvvəldən sarı və sonra qara olur. Onları çəyirtkə çay kənarında və qeyri qüvvətli yerlərdə bir, ya iki barmaq yerin altına qoyar. Hər çəyirtkənin 70-əcən yumurtası olur. Çəyirtkə onun hamısını bir yerə, ya bir neçə yerə salıb sonra tələf olur. Xüsusən çəyirtkə ömrünün əvvəlində yumurta, sonra piyada və uçan çəyirtkə olur. Onun yumurta vaxtı zərəri olmaz. Piyada çəyirtkə əmələ gəldiyi yerə zərər edər və uçan çəyirtkə öz səfərinin vaxtında bir yerə zərər edib qalxıb gedib qeyri yerə zərər edir. Yəni onun zərəri çox da olsa, bir yerə olmaz.

Çəyirtkəni yumurta vaxtında tələf etmək məsləhətdir" (Əkinçi, 2005).

Qəti şəkildə demək mümkündür ki, H.Zərdabinin "Çəyirtkə" əsəri dil sadəliyi, oxucu marağını özünə cəlb etməsi, hadisələrin təqdimi baxımından uşaq hekayələrini xatırladır. Bununla belə, hekayə eyni zamanda elmi faktların zənginliyi ilə də səciyyələnir. Müəllif sanki Azərbaycan şifahi xalq

ədəbiyyatının təhkiyə üslubuna istinad etmiş, lakin həmin təhkiyə üslubunu dəqiq rəqəmlərlə yeniləşdirmişdir.

Təqdirəlayiq haldır ki, "Əkinçi" qəzetində yer tutan elmi hekayələrin dil və üslub xüsusiyyətləri artıq nəzəri fikrin diqqətini cəlb etməkdədir. Məsələn, Aynur Mahmud "XIX əsrin sonu Azərbaycanda elmi üslubda terminlərin istifadə xüsusiyyətləri" məqaləsində yazır: "XIX əsr Azərbaycan tarixinin böyük nailiyyəti olaraq gördüyümüz "Əkinçi" qəzetinin nəşri elmi üslubun inkişafında da müəyyən rol oynamışdır. Elmi üslubun alt üslubu olaraq qəbul etdiyimiz elmi-publisistik üslubda əsərlər "Əkinçi" qəzetinin demək olar ki, hər sayında vardır.

Qəzetin digər məziyyətlərindən bəhs etmədən onun Azərbaycan elmi üslubunun formalaşmasındakı rolunun əhəmiyyətini də qeyd etmək olar. Bu dövrdə elmi üslubun elmi-publisistik alt üslubunu bir-birindən fərqləndirmək çətindir. "Əkinçi" qəzetinin "Elm xəbərləri" bölməsində verilən məlumatlar bu elmi üslubun nümunələri olaraq tədqiq edilə bilər. Bu bölmədə riyaziyyat, texnika, tibb, təbiət, yer, ictimai, humanitar və s. elmlər sahəsində məqalələrə yer verilirdi. Elmi əsərlərin dilində işlədilən məfhumlar, terminlər elmin gələcək inkişafı üçün terminoloji aparatın yaranması üçün də müəyyən zəmin hazırlayırdı" (Mahmud, A. 2022).

Əlbəttə ki, ""Əkinçi" də elmin kütləviləşməsi məsələsinin xüsusi ciddiyyətlə gündəmə gətirilməsi təsadüfi xarakter daşımırdı. XIX əsrin ortalarından başlayaraq Avropada da bilim insanlarını elmin populyarlaşdırılması məsələsi XIX əsrin ortalarından başlayaraq Avropa müəlliflərini ciddi şəkildə düşündürmüşdür (Lightman, 2016).

Aparılan təhlil göstərir ki, Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində gerçəkləşdirdiyi jurnalistika modeli Azərbaycan milli mətbuatının tarixində yeni mərhələ açmaqla yanaşı, elmi biliklərin cəmiyyətə çatdırılmasının özünəməxsus prinsiplərini də formalaşdırmışdır. Bu modelin mahiyyəti elmi informasiyanın sadəcə yayılmasında deyil, onun ictimai ehtiyaclarla əlaqələndirilməsində, insanların gündəlik həyatına tətbiqində və milli təfəkkürün inkişafına yönəldilməsində ifadə olunur. Zərdabi elmi cəmiyyətin məhdud bir təbəqəsinin mənimsədiyi biliklər toplusu kimi deyil, xalqın tərəqqisini, sağlamlığını, rifahını və dünyada baş verən dəyişikliklərə uyğunlaşmasını təmin edən başlıca vasitə kimi təqdim edirdi.

"Əkinçi"nin materiallarının araşdırılması elmi jurnalistikanın üç mühüm prinsipini önə çıxarmağa imkan verir: birincisi, elmi biliklər cəmiyyət üçün zəruri və praktik əhəmiyyət daşıyan məsələlərlə əlaqələndirilməlidir; ikincisi, elmi informasiyanın təqdimatında auditoriyanın bilik səviyyəsi, maraqları və qavrama imkanları nəzərə alınmalıdır; üçüncüsü, elmi məzmun sadələşdirilərək kütləviləşdirilərkən onun həqiqiliyi və mahiyyəti qorunmalıdır. H.Zərdabinin və "Əkinçi" ilə əməkdaşlıq edən digər müəlliflərin kənd təsərrüfatı, sağlamlıq, ekologiya və dünyəvi elmlərin əhəmiyyəti ilə bağlı yazıları bu prinsiplərin nəzəri müddəalar deyil, konkret jurnalist fəaliyyətində gerçəkləşdirilmiş yanaşmalar olduğunu təsdiqləyir.

"Əkinçi" modelinin mühüm xüsusiyyətlərindən biri də maarifçiliyin auditoriyanın mövcud səviyyəsinə uyğunlaşmaqla məhdudlaşmaması, eyni zamanda həmin səviyyəni yüksəltməyi qarşıya məqsəd qoymasıdır. Zərdabi oxucunun bilik və qavrama imkanlarını nəzərə alır, lakin bununla kifayətlənməyərək onu yeni biliklərə yiyələnməyə, dünyanı elmi əsaslarla dərk etməyə və ictimai həyatın fəal iştirakçısına çevrilməyə təşviq edirdi. Beləliklə, onun jurnalistika təcrübəsində anlaşıqlı dil elmi məzmunun səviyyəsini aşağı salmaq vasitəsi deyil, mürəkkəb bilikləri geniş auditoriya üçün əlçatan edən kommunikativ mexanizm kimi çıxış edirdi.

NƏTİCƏ

Müasir dövrdə informasiya bolluğunun, səthi məzmunun və əyləncə yönümlü media məhsullarının geniş yayıldığı şəraitdə "Əkinçi"nin elmi jurnalistika prinsipləri xüsusi aktuallıq qazanır. Elmi jurnalistin vəzifəsi yalnız yeni kəşflər və tədqiqatlar haqqında məlumat verməklə bitmir. O, elmi nəticələrin cəmiyyət üçün əhəmiyyətini izah etməli, onların gündəlik həyatla əlaqəsini göstərməli, elmi təfəkkürün və ictimai məsuliyyətin inkişafına töhfə verməlidir. Bu zaman elmi dəqiqliklə anlaşıqlılıq, informasiya zənginliyi ilə praktik fayda, auditoriyanın maraqları ilə maarifçilik missiyası arasında tarazlığın qorunması əsas şərtlərdəndir.

Nəticə etibarilə, "Əkinçi"nin elmi jurnalistika modeli tarixi irs olmaqla yanaşı, müasir medianın fəaliyyətinə istiqamət verə biləcək aktual nəzəri-metodoloji yanaşmadır. Həsən bəy Zərdabinin təcrübəsi sübut edir ki, jurnalistikanın həqiqi ictimai missiyası auditoriyanın mövcud maraqlarını sadəcə təmin etmək deyil, onun intellektual potensialını inkişaf etdirmək, elmi düşüncəsini gücləndirmək və cəmiyyətin tərəqqisinə xidmət etməkdir. Buna görə də "Əkinçi" ənənələrinin müasir elmi jurnalistika kontekstində öyrənilməsi və yaradıcı şəkildə tətbiqi milli mətbuatın maarifçilik funksiyasının gücləndirilməsi, elmi biliklərin kütləviləşdirilməsi və elmi təfəkkürün ictimai şüurda möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

ƏDƏBİYYATLAR

Ağayev, M. (2023). Həsən bəy Zərdabinin təbii-elmi görüşləri. Türküstan.az. https://www.turkustan.az/news/media-project/42697

Cəfərov, İ. (2025, 18 iyul). Elmi jurnalistikanın "Əkinçi" modeli. Yeni fikir, 5(67), 10. https://nesriyyat.ndu.edu.az/storage/uploads/book-pdfs/18%20iyul%202025-ci%20il%2C%20%E2%84%96%2051%20%2867%29.pdf

Əkinçi. 1875–1877: Tam mətni. (2005). Avrasiya Press.

Həbibbəyli, İ. (2004). XX əsr Azərbaycan ədəbiyyatı. Nurlan.

Lightman, B. (2016). Popularizers, participation and the transformations of nineteenth-century publishing: From the 1860s to the 1880s. Notes and Records, 70(4), 343–359. https://doi.org/10.1098/rsnr.2016.0029

Mahmud, A. (2022). XIX əsrin sonu Azərbaycanda elmi üslubda terminlərin istifadə xüsusiyyətləri. Terminologiya məsələləri, (1), 44–51.

Mirəhmədov, Ə. (1983). Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Maarif.

Shipman, M. (n.d.). Bilim iletişimi: Bilim basın sözcüleri ve gazeteciler için bir kılavuz. https://readli.net/chitat-online/?b=968651&pg=1

ABSTRACT

THE NEWSPAPER "AKINCHI" AND THE PROBLEM OF SCIENCE JOURNALISM

Iman Jafarov

Nakhchivan State University, Nakhchivan, Azerbaijan

The article examines the formation and development of scientific journalism in Azerbaijan through materials published in "Akinchi," edited by Hasan bey Zardabi between 1875 and 1877. It focuses on the newspaper's educational efforts to popularize scientific knowledge, promote secular sciences, and foster national thought. Articles on agriculture, medicine, ecology, natural sciences, and social issues are analyzed to identify key principles for communicating scientific information to a broad audience. Particular attention is given to Zardabi's ability to present scientific knowledge in ways that reflected readers' worldviews, interests, and levels of comprehension. The study finds that "Akinchi's" model of scientific journalism emphasized scientific information's practical relevance, audience knowledge, and factual accuracy when simplifying complex content. It substantiates these principles' continued relevance to contemporary science journalism and highlights the value of applying "Akinchi's" educational legacy in today's media environment. It also explores how the newspaper connected science with everyday life, encouraged curiosity and observation, and contributed to public scientific literacy. The findings show that "Akinchi" played a significant role in Azerbaijani press history as both an educational publication and a platform for scientific communication.

Keywords: *Akinchi newspaper, Hasan bey Zardabi, science journalism, popularization of science, enlightenment, scientific knowledge, national press.*

РЕЗЮМЕ

ГАЗЕТА «ЭКИНЧИ» И ПРОБЛЕМА НАУЧНОЙ ЖУРНАЛИСТИКИ

Иман Джафаров

Нахчыванский государственный университет, Нахчыван, Азербайджан

В статье исследуются становление и особенности развития научной журналистики в Азербайджане на основе материалов газеты «Экинчи», издававшейся под редакцией Гасан бека Зардаби в 1875–1877 годах. Основное внимание уделяется просветительской деятельности газеты, направленной на популяризацию научных знаний, пропаганду светских наук и развитие национального мышления. Анализируются публикации об сельском хозяйстве, медицине, экологии, естественных науках и общественных вопросах, позволяющие определить принципы донесения научной информации до широкой аудитории. Особо оценивается способность Гасан бека Зардаби представлять научные знания с учетом мировоззрения, интересов и возможностей восприятия читателей. Установлено, что модель научной журналистики «Экинчи» основывалась на раскрытии практической значимости научной информации, учете уровня знаний аудитории и сохранении фактической точности при упрощении содержания. Обосновывается актуальность этих принципов для современной научной журналистики и подчеркивается важность применения просветительских традиций «Экинчи» в нынешней медиасреде. Также рассматриваются связь научных тем с повседневной жизнью, стимулирование интереса к наблюдениям и исследованиям, вклад газеты в повышение научной грамотности общества. Результаты показывают, что «Экинчи» сыграла значимую роль в истории азербайджанской прессы как просветительское издание и площадка научной коммуникации.

Ключевые слова: *газета «Экинчи», Гасан бек Зардаби, научная журналистика, популяризация науки, просвещение, научные знания, национальная пресса.*